Sort 294-VD1-D1-DVK-DVK və Briqantina sortlarının çarpazlaşdırılması yolu ilə alınmış və 1994-cü ildən respublikada rayonlaşdırılmış və Dövlət reyestrində (şəhadətnamə №00003) qeydə alınmışdır.

Konservlik istiqamətində yaradılmış və rayonlaşdırılmış ilk yerli sortdur. Kolu adi, determinant tipli, orta yarpaqlanandır. Əsas gövdənin hündürlüyü 55-70 sm-dir, yarpağı adi tipli, iri (28-37 sm), yaşıl, səthi orta qırışıqlıdır. Çiçək salxımları sadə tipli, orta uzunluqdadır (13-16 sm). Bitki üzərində ilk salxımlar 6-7 yarpaqdan, növbəti salxımlar isə əvvəlkindən 1-2 yarpaq sonra əmələ gəlir. Bəzən kolların üst yarusunda salxımların yarpaqsız növbələşməsi müşahidə edilir.



Təcrübələrin nəticələrinə əsasən, bitki üzrə çiçək salxımlarının orta meyvəbağlama qabiliyyəti 50-55% olmuşdur. Salxımda meyvələrin orta sayı 5-7 arasında dəyişir. Meyvə saplağı "dirsəksiz", $J_1$ genlidir. Meyvələri oval formalı (ind. 1,0-1,25), səthi sığallı, tünd qırmızı rəngli, kütləsi 70-120 q arasında dəyişir. Yetişmiş meyvələr kifayət qədər bərkliyə malikdir. Onlar bitki üzərində yumşalmadan 10-5 gün öz əmtəəlik keyfiyyətlərini saxlayır. Bu isə məhsulun uzaq məsafəyə az itki ilə daşınmasına təminat yaradır.

Yetişmiş meyvələrin əsas bərklik göstəriciləri aşağıdakı kimidir: onların deşilməyə qarşı davamlılığı 115-130 q/mm$^2$, dinamik təsirlərə qarşı davamlılığı isə 0,11-0,13 kq m-dir.

Orta kütləli, təzə yetişmiş meyvələrdə ilk çatlar 4,4-5,0 kq statik təzyiqdən sonra əmələ gəlir. Qeyd etmək lazımdır ki, hazırda respublikada açıq sahə üçün rayonlaşmış pomidor sortları içərisində meyvələrin fiziki-mexaniki göstəricilərinə görə İlkin sortuna nisbətən yaxın olanları Noviçok və Titan sortlarıdır.

Meyvələr əsasən iki yuvalıdır, bəzən iri meyvələrdə üç yuvalılıq da müşahidə olunur. Yuvalar düzgün quruluşludur. Meyvələrdən toxum çıxımı azdır. Sortun toxum çıxımı əmsalı 0,23-dür.

İlkin sortunun respublikanın müxtəlif tərəvəzçilik bölgələri üzrə qiymətli təsərrüfat-bioloji əlamətlərinin fenotipik dəyişkənlik həddi 1 saylı cədvəldə göstərilmişdir.

İlkin sortunun meyvələrinin tərkibində əsas biokimyəvi maddələrin miqdarı aşağıdakı kimidir: quru maddə 6,1-6,5%; şəkər 2,7-3,2%, turşuluq 0,38-0,46%; askorbin turşusunun miqdarı isə 21,6-24,3 mq%-dir.

Vegetasiya dövrünün uzunluğuna görə İlkin ortayetişən sortlar qrupuna daxildir. Belə ki, kütləvi cücərtilərin əmələ gəlməsindən ilk meyvələrin yetişməsinə qədər keçən müddətin uzunluğu 110-118 gün təşkil edir.

Sortun Abşeron, Lənkəran-Astara və Quba-Xaşmaz bölgələrində qəbul edilmiş aqrotexnika üzrə stansiyalararası və təsərrüfat sınaqları keçirilərkən, onun ümumi məhsuldarlığı hər hektardan 480,0-650,0 sent., əmtəəlik məhsuldarlığı isə 430,0-590,0 sent. arasında dəyişmişdir. Yeni sortun məhsuldarlığı Noviçok və Novinka Pridnestrovya sortlarına nisbətən, təcrübə sahələrində 151,7-184,9 s/ha, təsərrüfat sınaqlarında isə 110,0-147,0 s/ha artıq olmuşdur.

***İlkin pomidor sortunun qiymətli təsərrüfat-bioloji əlamətlərinin fenotipik dəyişkənlik həddi***

| *Əsas əlamət və göstəricilər* | *Orta göstəricilər, $X \pm m_x$* | *Variasiya əmsalı V, %-lə* |
|---|---|---|
| I Vegetasiya dövrünün | | |
| fazalar üzrə müddəti (günlə) | 62±1,1 | 7,4 |
| -kütləvi çıxışdan | 113±0,8 | 9,8 |
| çiçəkləməyə qədər; | 118±0,4 | 22,0 |
| -kütləvi çıxışdan ilk | 480,0±0,7 | 14,5 |
| meyvələrin yetişməsinə | | |
| qədər; | 85,0 | 6,3 |
| -I və II salxımlarda olan | 65,1±0,87 | 5,6 |
| meyvələrin kütləvi | 57,8±0,69 | 3,7 |
| yetişməsinə qədər; | 1,1-1,2 | |
| II Məhsuldarlıq, s/ha. | 6,1±0,2 | 6,4 |
| III Meyvənin əsas morfoloji | 2,7±0,09 | 7,1 |
| və biokimyəvi göstəriciləri: | 0,38±04 | 18,4 |
| -bir ədədin orta kütləsi, q | 24,1±2,1 | 19,9 |
| -orta hündürlüyü, mm | 0,24 | 6,7 |
| -orta diametri, mm | 2,9-3,2 | |
| -indeksi | | |
| -quru maddənin miqdarı, % | | |
| -şəkər, % | | |
| -ümumi turşuluq, % | | |
| -"C" vitamini, mq % | | |
| IV toxum çıxımı (məhsulun kütləsinə görə, %-lə) | | |
| V 1000 ədəd toxumun orta kütləsi, q | | |

Sortun müxtəlif torpaq iqlim bölgələrində sabit məhsuldarlığı ilk növbədə onun çiçək tozcuqlarının yüksək termorequlyasiya qabiliyyətinə malik olması ilə izah edilir. Tozcuqların həyatilik qabiliyyəti 28±1$^0$C temperatur həddində bu sortda 73,3%, Utro

sortunda 61,7%, Novinka Pridnestrovya sortunda isə 40,1% olmuşdur. Yüksək 43±1$^0$C temperatur həddində isə İlkin və nəzarət sortlarında tozcuqların həyatilik qabiliyyəti azalaraq müvafiq şəkildə 53,6, 48,7 və 38,5% olmuşdur. Çiçəklərin meyvəbağlama qabiliyyəti, tozlanmadan sonra onlarda mayalanma prosesinin normal getməsi ilə əlaqədardır ki, bu da tozcuqların fəaliyyətindən çox asılıdır.



İlkin sortunun Abşeron və Lənkəran-Astara bölgələrində sort aqrotexnikasının əsas elementləri öyrənilərkən məlum olmuşdur ki, əgər Abşeron şəraitində sortun 70x30 sm qida sxemində məhsuldarlıq hər hektardan 465,0-495,0 sent olmuşdursa, ikicərgəli 90+50x30, 90+50x40 sm qida sxemində bu göstərici müvafiq olaraq 564,7 və 510,9 s/ha təşkil edir. Qalan təcrübə sxemlərində isə orta məhsuldarlıq 467,6-416,8 s/ha (120+40x30) həddində olmuşdur. Abşeron bölgəsində İlkin sortu üçün qəbul edilmiş 70x30 sm qida sahəsindən başqa, ikicərgəli 90+50x30 və 120+60x30 sm lentlə əkini məqsədə uyğun hesab edilmişdir.

İnstitutun aqrokimya laboratoriyasının məlumatına əsasən, Abşeron şəraitində bu sort üçün ən optimal gübrə norması $N_{110}$ $P_{90}$ $K_{120}$ (təsiredici maddə hesabı ilə) qəbul edilmişdir.

Əkinlərdə üzvi gübrələrlə bərabər fosforun 60%-in əsas şum altına verilməsi məsləhətdir. Vegetasiya dövrü ərzində isə yemləmə gübrələrinin üç mərhələdə verilməsi daha düzgün olardı:

Əkindən 10-15 gün sonra $N_{50}$ $P_{15}$ $K_{40}$ kq; bitkilərin kütləvi meyvəbağlama fazasında $N_{70}$ $P_{25}$ $K_{60}$; II yığımından sonra $N_{70}$ $P_{25}$ $K_{60}$; II yığımdan sonra $N_{60}$ $P_{20}$ $K_{50}$ kq.

Lənkəran-Astara bölgəsi şəraitində İlkin sortunun 70x30 sm qida sxemində məhsuldarlığı 584,7-604,5 s/ha; ikicərgəli 90+50x40 sm lent üsulunda isə 632,1-667,9 s/ha arasında dəyişmişdir. Hər iki əkin sxemi bölgə üçün məsləhət görülür. Bölgədə İlkin sortu üçün ən optimal qida normaları $N_{180}$ $P_{90}$ $K_{110}$ (təsiredici maddə hesabı ilə) hesab edilmişdir.



Burada üzvi gübrələrin illik norması və fosforun 60%-i əsas şum altına verilir. Mineral gübrələrin, o cümlədən, fosforun qalan hissəsinin bölgədə iki dəfə yemləmə şəklində verilməsi məsləhətdir:

1. Əkindən 10-15 gün sonra – $N_{80}$ $P_{30}$ $K_{90}$.
2. Birinci yemləmədən 15-0 gün sonra-$N_{60}$ $P_{45}$ $K_{60}$.

Əkinlərdə xəstəlik və zərərvericilərə qarşı mübarizə, istifadəsinə icazə verilmiş kimyəvi preparatlarla və qəbul edilmiş dozalarda aparılmışdır.

*Azərbaycan Respublikası*
*Kənd Təsərrüfatı Nazirliyi*
*Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutu*



# Pomidor İLKİN sortu